**Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"ndə, "Televiziya və radio yayımı haqqında", "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" və "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun icrası ilə əlaqədar **qərara alır:**

**Maddə 1.** Azərbaycan Respublikasının 1996-cı il 17 may tarixli 74-IQ nömrəli Qanunu (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1997, 2, maddə 107; 1999, 5, maddə 284; 2000, 6, maddə 380, 12, maddələr 832, 834; 2003, 2, maddə 77; 2004, 5, maddə 314; 2006, 1, maddə 3, 5, maddə 396, 12, maddə 1005; 2007, 8, maddə 755, 11, maddələr 1049, 1081; 2009, 6, maddə 395; 2010, 3, maddə 171; 2013, 4, maddə 358; 2016, 1, maddə 35; 2019, 1, maddə 1, 8, maddə 1365) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Milli Məclisinin Daxili Nizamnaməsi"nin 3-cü maddəsinin dördüncü hissəsinə aşağıdakı məzmunda üçüncü cümlə əlavə edilsin:

"Azərbaycan Respublikasının Prezidenti Milli Məclisin iclaslarına gəldiyi zaman Azərbaycan Respublikasının Dövlət Himni ifa edilir.".

~~**Maddə 2.** "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, 10, maddə 583; 2004, 1, maddə 10; 2005, 4, maddə 278, 6, maddə 469; 2006, 11, maddə 932, 12, maddə 1005; 2007, 6, maddə 560, 8, maddə 749, 11, maddə 1053; 2009, 6, maddə 394; 2010, 7, maddə 600; 2011, 2, maddə 70; 2015, 4, maddə 354; 2016, 12, maddə 1987; 2018, 2, maddə 153, 6, maddə 1167, 12 (I kitab), maddə 2477; 2019, 12, maddə 1882) aşağıdakı məzmunda 40.2.1-1-ci maddə əlavə edilsin:~~ [1]

~~"40.2.1-1. Azərbaycan Respublikasının Dövlət Himnini hər səhər Azərbaycan Respublikasının televiziya və radio yayımlarının əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirmək;".~~

**Maddə 3.** "Azərbaycan Respublikası Dövlət bayrağının istifadəsi qaydaları haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 7, maddə 515; 2005, 10, maddə 874; 2010, 4, maddə 276; 2013, 11, maddə 1303; 2019, 11, maddə 1683, 12, maddə 1916) aşağıdakı məzmunda 1.4-cü maddə əlavə edilsin:

"1.4. Azərbaycan Respublikasının Dövlət Bayrağı qaldırılarkən və ya asılarkən, Azərbaycan Respublikasının Dövlət Himninin mütləq ifa edildiyi hallar "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilir.".

**Maddə 4.** "İctimai televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikasının Qanununa (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, 11, maddə 888; 2006, 3, maddə 224, 12, maddə 1005; 2007, 5, maddələr 435, 442, 12, maddə 1218; 2009, 10, maddə 772; 2011, 2, maddə 70; 2012, 9, maddə 839; 2015, 5, maddə 493, 11, maddə 1281; 2016, 12, maddə 1988; 2018, 6, maddə 1170, 12 (I kitab), maddə 2478; 2019, 4, maddə 599, 12, maddə 1882) aşağıdakı məzmunda 7.1.1-1-ci maddə əlavə edilsin:

"7.1.1-1 Azərbaycan Respublikasının Dövlət Himninin hər səhər ictimai yayımın əvvəlində "Azərbaycan Respublikasının Dövlət Himnindən istifadə qaydaları haqqında" Azərbaycan Respublikası Qanununun 6.2-ci maddəsinə uyğun olaraq səsləndirilməsi;".

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 8 may 2020-ci il
95-VIQD

**İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI**

1. 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**)

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 30 dekabr 2021-ci il tarixli **471-VIQ** nömrəli Azərbaycan Respublikasının Qanunu (**"Azərbaycan" qəzeti, 9 fevral 2022-ci il, 29 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022-ci il, 2, maddə 90**) ilə 2-ci maddə ləğv edilmişdir.